# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

№ 328 Bakı şəhəri, 25 avqust 2022-ci il

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Doktoranturalar yaradılan Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatların Siyahısı"nın təsdiq edilməsi haqqında" 2010-cu il 14 dekabr tarixli 235 nömrəli, "Azərbaycan Milli Elmlər Akademiyasının strukturunun və işçilərinin say həddinin təsdiq edilməsi haqqında" 2015-ci il 17 noyabr tarixli 363 nömrəli, "Baza maliyyələşdirilməsinin subyektləri olan elmi müəssisə və təşkilatların Siyahısı"nın təsdiq edilməsi haqqında" 2017-ci il 21 dekabr tarixli 584 nömrəli və "Dövlət informasiya sistemlərinin və ehtiyatlarının "Hökumət buludu"na Keçid Planı"nın təsdiq edilməsi və "Hökumət buludu" ilə bağlı bəzi tədbirlər haqqında" 2020-ci il 29 oktyabr tarixli 428 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə**

"Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 19 may tarixli 1685 nömrəli Fərmanının 6.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 14 dekabr tarixli 235 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 12, maddə 1117; 2011, № 9, maddə 853; 2013, № 7, maddə 883, № 10, maddə 1232; 2014, № 1, maddə 57, № 6, maddələr 736, 752; 2015, № 4, maddə 455, № 8, maddə 967; 2016, № 5, maddə 955, № 6, maddə 1208, № 8, maddə 1435, № 11, maddə 1953; 2017, № 2, maddə 301, № 4, maddə 667, № 7, maddə 1494, № 10, maddə 1931; 2018, № 3, maddə 598, № 8, maddə 1798, № 9, maddə 1935; 2019, № 1, maddə 150, № 5, maddə 944, № 8, maddə 1463, № 12, maddə 2089; 2020, № 1, maddə 83, № 4, maddə 481, № 11, maddə 1412; 2021, № 6 (IV kitab), maddə 674, № 10, maddə 1169, № 11, maddə 1281, № 12, maddə 1517) ilə təsdiq edilmiş "Doktoranturalar yaradılan Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatların Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. "Azərbaycan Milli Elmlər Akademiyası üzrə" bölməsinin "İctimai elmlər bölməsi"nin 4-cü hissəsi ləğv edilsin;

1.2. "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxs üzrə" bölməsindən sonra aşağıdakı məzmunda "Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi" publik hüquqi şəxs üzrə" bölməsi əlavə edilsin:

| "Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi" publik hüquqi şəxs üzrə | | | |
|---|---|---|---|
| 1. | Hüquq və İnsan Haqları İnstitutu | fəlsəfə doktoru üzrə | elmlər doktoru üzrə |

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 17 noyabr tarixli 363 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 11, maddə 1426; 2016, № 7, maddələr 1356, 1359; 2017, № 1, maddə 127; 2020, № 10, maddə 1263; 2021, № 9, maddə 1076) ilə təsdiq edilmiş "Azərbaycan Milli Elmlər Akademiyasının Strukturu"nun 2.31-ci bəndi ləğv edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 21 dekabr tarixli 584 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (II kitab), maddə 2531; 2018, № 8, maddə 1798; 2019, № 5, maddə 944; 2020, № 4, maddə 481, № 10, maddə 1309, № 11, maddə 1409; 2021, № 11, maddə 1281; 2022, № 4, maddə 388) ilə təsdiq edilmiş "Baza maliyyələşdirilməsinin subyektləri olan elmi müəssisə və təşkilatların Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.34-cü bənd ləğv edilsin;

3.2. 14.9-cu bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 15-ci hissə əlavə edilsin:

"**15. "Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi" publik hüquqi şəxs üzrə:**

15.1. Hüquq və İnsan Haqları İnstitutu.".

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 oktyabr tarixli 428 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 10, maddə 1316; 2021, № 2, maddə 203, № 4, maddələr 416, 418, № 9, maddə 1064, № 12, maddə 1510; 2022, № 4, maddə 381; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 24 iyun tarixli 247 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Dövlət informasiya sistemlərinin və ehtiyatlarının "Hökumət buludu"na Keçid Planı"na aşağıdakı məzmunda 92-ci sətir əlavə edilsin:

| | | |
|---|---|---|
| 92. | Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi | |

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

Xalq qəzeti.- 2022- ci il.- 26 avqust.- S. 9.